**Xalqımız hər zaman bizə qələbə bəxş edən qəhrəman övladlarını sevinc və minnətdarlıq hissi ilə anacaq. 27 Sentyabr xalqımızın qürur və özünəqayıdış günüdür. 44 günlük Vətən müharibəsinin ilk günü olan 27 sentyabr Azərbaycanın hərb və dövlətçilik tarixində hər zaman ehtiram və iftixar hissi ilə anılacaq. Bu fikirləri "Xalq qəzeti"nə müsahibəsində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, hərbi-siyasi ekspert, polkovnik Cəlil Xəlilov bildirib. Müsahibəni təqdim edirik:**

# 27 sentyabr xalqımızın qürur və özünəqayıdış günüdür



***– Cəlil müəllim, müharibənin başladığını necə xatırlayırsınız?***

– 2020-ci ilin 27 Sentybar tarixi 44 günlük şanlı Vətən müharibəsinin başladığı, ordumuzun bütün cəbhə xətti boyu əks-hücuma keçdiyi gündür. Məhz 27 sentyabr tarixində Azərbaycan xalqı, Azərbaycan Ordusu, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev 30 illik erməni işğalına qarşı hərbi müstəvidə mübarizəyə başladı və bu mübarizə cəmi 44 gün ərzində yağı düşmənin məğlub olması, Ermənistanın hərbi potensialının 80 faizdən çoxunun darmadağın edilməsi ilə nəticələndi. Azərbaycan 44 gün ərzində düşməni torpaqlarımızdan qovub çıxardı. Bir sıra iri rayonlarımız – Ağdam, Laçın və Kəlbəcər isə bir güllə belə atılmadan, Prezident İlham Əliyevin diplomatik səriştəsi nəticəsində erməni işğalından azad edildi. Ermənistanın bu 30 ildə qurduğu bütün istehkamlar 44 gün ərzində yarıldı, hərbi texnikaları dəmir yığınına çevrildi. Bu, Azərbaycan hərb tarixinin ən böyük, ən möhtəşəm qələbəsi idi. Əminəm ki, illər, əsrlər keçsə də, bu qələbə Azərbaycan xalqının qan yadaşında, Azərbaycan tarixində ən şanlı qalibiyyət kimi yaşayacaq, öz əzəmətindən heç nə itirməyəcəkdir. 27 Sentyabr həmişə tarixin yaddaşında qalacaq.

***– Cənab polkovnik, istərdik müharibənin tarixi əhəmiyyətindən danışasınız.***

– 30 il ərzində Azərbaycan bütün dünya ictimaiyyətinə - xarici dövlətlərə, təşkilatlara öz sülh təklifini verdi. Bu istiqamətdə xeyli görüşlər baş tutdu. Azərbaycan hər zaman sülhə, sülh danışıqlarına sədaqət nümayiş etdirdi. Təəssüf ki, ermənilər işğalçılıq ideyalarından, vandal aktlarından, faşist təfəkküründən əl çəkmədilər. Bu mənada müharibə qaçılmaz idi. Bu müharibəni həm də xalqımız, gənclərimiz, orduda xidmət edən zabitlərimiz, əsgərlərimiz tələb edirdi. Qələbənin əldə edilməsi Azərbaycan Silahlı Qüvvələrinin, Azərbaycan xalqının qəhrəman övladlarının fədakarlığı sayəsində mümkün olub.

Şübhəsiz, 30 il torpaqlarımızı işğalda saxlayan, bu torpaqlarda çoxlu sayda manеə və istehkamlar inşa edən erməniləri tarixi torpaqlarımızdan qovub çıxarmaq heç də asan məsələ deyildi. Bu, yüksək dağ şəraitində döyüşə bilən bacarıqlı, peşəkar ordu, sözün əsl mənasında dahi sərkərdə tələb edirdi. Bundan başqa, bu müharibədə qələbə qazanmaq üçün həm də həqiqi fədakarlıq, yüksək mənəvi keyfiyyətlər tələb olunurdu. Qürurvericidir ki, Azərbaycan xalqı qələbə üçün gərəkli olan bütün amilləri ortaya qoya bildi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri qısa zamanda düşməni darmadağın edərək işğaldakı torpaqları azad etdi. Müharibə nəticəsində üç min hərbçimiz şəhid oldu, minlərlə hərbçimiz yaralandı.

Ermənistan müharibəni beynəlxalq hüquq prinsiplərinə uyğun aparmırdı. Dinc sakinləri, mülki obyektləri, şəhər və kəndlərimizi hədəf olaraq seçirdi. Bütün bunlar qəzəb, hiddət doğururdu. Lakin bütün bunlara baxmayaraq, xalqımız qələbəyə imza ata, düşmənə tarixi dərs verə bildi. Bu gün 44 günlük Vətən müharibəsinin başlamasından iki il ötür. Biz sadəcə 27 sentyabr tarixində deyil, hər zaman qəhrəman şəhidlərimizi sevgi ilə anır, onlarla fəxr edir, qəlbən öz minnətdarlığımızı bildiririk. Çünki dövlətimizin ərazi bütövlüyü məhz onların sayəsində bərpa olunub. Xalqımız öz mənəvi bütövlüyünü, öz qürurunu məhz onların igidliyi, fədakarlığı sayəsində bərpa edib. Məhz onların sayəsində biz hər kəsin gözünə dik baxa, öz milli kimliyimizlə fəxr edə, işğaldan azad edilən torpaqlarımızda azad və qürurla gəzə bilirik.

Dünyanın aparıcı ölkələri belə Azərbaycana irad tuta bilmirlər. Çünki bu müharibə Azərbaycanın haqq savaşı idi. Azərbaycan Ordusu Azərbaycan torpağında terrora, erməni silahlı dəstələrinə qarşı ədalətli müharibə aparırdı. Ədalət tərəfdarı olan Türkiyə, Pakistan kimi bir çox ölkələr Azərbaycanın haqq savaşını dəstəkləyirdi.

***– Cəlil müəllim, ordumuz, gənclərimiz müharibəyə hansı səviyyədə hazırlıqlı idi?***

– Biz qələbəni olduqca yüksək əhval-ruhiyyə ilə hazırlıqlı olan ordumuz, gənclərimiz sayəsində qazandıq. Son 30 ildə gənclərimiz yüksək səviyyədə döyüşə hazırlanmış, mənəvi-psixoloji cəhətdən yetişmişdi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra bu proseslər başladı – ictimai-siyasi sabitlik yarandı, ordu quruculuğu, iqtisadiyyat və idarəetmə gücləndirildi, xarici dövlətlərlə iqtisadi-siyasi əlaqələr quruldu, Azərbaycan gənclərinin xaricdə hərbi təhsil almaları üçün imkanlar yaradıldı. Hərbi məktəblərin yaradılması, güclü ordunun formalaşması, NATO kimi təşkilatların ölkələri ilə əlaqələrin genişləndirilməsi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirildi. Azərbaycan Ordusu yüksək səviyyədə təmin olunmuş, NATO standartları səviyyəsinə çatdırılmışdı. Türkiyə, Rusiya, Çexiya, İsrail kimi ölkələrdən ən müasir silah və texnikalar alınaraq, Azərbaycan Ordusunun arsenalına daxil edilmişdi. Bütün bu imkanlardan sonra qalib gəlməmək mümkün deyildi. Bu müharibədə Ali Baş Komandan həm də diplomat kimi olduqca yüksək səriştə göstərdi. Dünya ictimaiyyətinə Azərbaycanın haqq savaşını çatdırmaqla yanaşı, ordumuza da yüksək dəstək göstərdi. 44 gün ərzində hərbi formanı çıxarmadı, zabit və əsgərlərimizin yanında oldu. Prezident hər an cəbhədə gedən məsələləri



araşdırır, analiz edir və təkliflər verirdi.

***– Düşünürəm ki, qələbənin qazanılmasında xalq-dövlət birliyi də az rol oynamadı.***

– Əlbəttə ki, bu belə idi. Səfərbərlik və hərbi çağırış xidməti idarələrinin qarşısı gənclərlə, ehtiyatda olan zabitlərlə dolu idi. Hər kəs döyüşmək istəyirdi. Hər bir azərbaycanlı əsgərlərimizin yanında olmaq, onlarla birgə döyüşmək istəyirdi.

***– Biz həm də arxa cəbhədə xüsusi fəallıq gördük.***

– Bəli, iş adamlarımız, dövlət müəssisələri, qurum və təşkilatlar orduya lazım olan ləvazimatlar göndərirdi. Təminat o qədər güclənmişdi ki, onları yerləşdirmək belə olmurdu. Müharibədə iştirak edən bir qazimizin mənə danışdığı hissələri sizinlə bölüşəcəm. Qazimiz deyirdi ki, bir məktəbli uşaq əsgərə corab göndərmişdi və üzərinə yazmışdı ki, "əsgər əmi, geyin bunu, ayaqlarına soyuq olmasın". Bu məktəblidən tutmuş yüz yaşındakı veteranlarımıza maddi və mənəvi birlik nümayiş etdirdi. Ordumuzu bu birlik daha da irəli aparırdı. Hər gün irəli gedir, 44 gün ərzində bir gün belə ləngimirdi, ancaq irəli.

***– Siz Əfqanıstan və Qarabağ müharibələrinin veteranı olmaqla yanaşı, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavinisiniz. Təmsil olunduğunuz təşkilat istər müharibə ərəfəsində, istərsə də müharibədən sonra hansı işləri həyata keçirib?***

– Təmsil olunduğum təşkilat hər zaman şəhidlərimizin təbliğinə, onların xatirəsinin əbədiləşdirilməsinə xüsusi diqqət yetirib və bu amil təşkilatın gələcək fəaliyyətində də əsas istiqamətlərdən biri olaraq qalacaqdır. Hesab edirəm ki, kimliyindən, sosial statusundan, harada, hansı vəzifədə çalışmasından asılı olmayaraq, hər kəs şəhidlərimizin xatirəsini uca tutmalı, onların xatirəsinin əbədiləşdirilməsi, müharibədə göstərdikləri qəhrəmanlıqların təbliğ edilməsi, gənc nəslə tanıdılması istiqamətində əlindən gələni etməlidirlər.

Bu mənada, təşkilatımız gənclərin orduya hazırlanması ilə bağlı müxtəlif qurumlarda, təhsil ocaqlarında görüşlər keçirib. Hərbi qanunvericiliyi, Azərbaycanın tarixini xüsusi təbliğ edirik. Ordumuzda olan texnikalardan istifadə qaydaları, nizam-intizama riayət edilməsi məsələlərinin təbliği istiqamətində, gənclərin fiziki hazırlığı cəhətdən xeyli işlər görmüşük. Təkcə ölkə daxilində deyil, müxtəlif xarici dillərdə dünya ictimaiyyəti, dünya veteranlar təşkilatları qarşısında da təbliğatımızı yüksək səviyyədə aparmışıq.

Həmin proses bu gün də davam etdirilir. Biz həm xaricə dəvət olunur, həm də ölkəmizə qonaqlar dəvət edərək nəzərlərinə çatdırırıq ki, Azərbaycan ərazi bütövlüyünü təmin etməsi üçün mübarizə aparır, heç bir dövlətə ərazi iddiası yoxdur. Sadəcə, bugünkü gənclər deyil, gələcək nəsillər də bilməlidirlər ki, biz 8 Noyabr Zəfərinə görə kimlərə borcluyuq. Bu baxımdan Müharibə, Əmək və Silahlı Qüvvələrt Veteranlar Təşkilatı mütəmadi iş aparmaqda, orta və ali təhsil müəssisələrində, müxtəlif auditoriyalarda şəhidlərimizin və onların qəhrəmanlıqlarının təbliği ilə məşğul olmaqda, onların xatirəsinin əbədiləşdirilməsi üçün əlaqədar dövlət orqanları qarşısında məsələlər qaldırmaqdadır. Biz hər vasitə ilə çalışırıq ki, gənclərimiz şəhidlərimizi tanısın, onların döyüş yoluna dərindən bələd olsunlar. Bu, həm milli və hərb tariximizin öyrənilməsi, həm də qəhrəmanlıq ənənələrinin davam etdirlməsi baxımından əhəmiyyətlidir. Müharibə, Əmək və Silahlı Qüvvələrt Veteranlar Təşkilatı olaraq gələcəkdə bu istiqaməti daim diqqət mərkəzində saxlayacaq, şəhdilərimizin təbliği istiqamətində yeni-yeni addımlar atacaq, layihələr həyata keçirəcəyik.

***– Müsahibəmizin sonuna gəldik. Sonda vurğulamaq istədiyiniz fikirlərinizi bölüşə bilərsiniz.***

– Ermənistan sülhdən yayınır. Bu həm də Ermənistan rəhbərliyinin xalqına olan xəyanətidir. İşğalçılıq niyyətindən əl çəkərək, orada yaşayan insanların firəvanlığı üçün nələrsə edə bilərlər. Ermənilər xaricdən yardım alaraq, təxribatlar törətməyə son qoymalı, kiminsə oyuncağına çevrilməkdən yaxa qutarmağı düşünməlidirlər. Görünən odur ki, himayədarları onları düzgün təlimatlandıra bilmirlər.

Müharibə itkisiz, qələbə şəhidsiz olmur. Sözsüz ki, şəhidlərimiz, qazilərimiz oldu. Mən həm Birinci Qarabağ müharibəsində, həm də 44 günlük Vətən müharibəsində həlak olan şəhidlərimizə Allahdan rəhmət diləyir, onların ruhu qarşısında baş əyirəm. Şəhidlərimizə olan sevgimiz sonsuz və əbədidir. Qazilərimizə can sağlığı arzulayıram.

***Qələmə aldı:***
***Rizvan FİKRƏTOĞLU,***
***"Xalq qəzeti"***